**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Teyyublu Xəzər Qardaşəli oğlunun 26 dekabr 2009-cu il tarixli 176 saylı, vətəndaş Məmmədov Ənvər Mustafa oğlunun 28 dekabr 2009-cu il tarixli 202 saylı, vətəndaş Şirinov Vaqif Şirin oğlunun 28 dekabr 2009-cu il tarixli 210 saylı, vətəndaş Rəhimov Mayıl Əliş oğlunun 28 dekabr 2009-cu il tarixli 211 saylı, vətəndaş Kərimov Əliman Əlif oğlunun 28 dekabr 2009-cu il tarixli 214 saylı, vətəndaş Zeynalova Nənəxanım Əvəz qızının 28 dekabr 2009-cu il tarixli 215 saylı, vətəndaş Kərimov Nadir Əşrəf oğlunun 28 dekabr 2009-cu il tarixli 216 saylı, vətəndaş Ehtiram Əmraslanovun 28 dekabr 2009-cu il tarixlı 217 saylı, vətəndaş Füzuli Əkbərovun 29 dekabr 2009-cu il tarixlı 222 saylı, vətəndaş Məmmədli Cəmil Qiyas oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 230 saylı, vətəndaş Məmmədov Qəhrəman Oruc oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 231 saylı, vətəndaş Məmmədəli Abbasov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 234 saylı, vətəndaş İbrəhimov Şirzad Mirzə oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 236 saylı, vətəndaş İman Bayramovun 29 dekabr 2009-cu il tarixli 238 saylı, vətəndaş Kərimov Kərim Xeyrulla oğlunun 29 dekabr 2009-cu il tarixli 239 saylı, vətəndaş İbrəhimov Şirzad Mirzə oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 244 saylı, vətəndaş Xəlilov Əsəd Xanlar oğlunun 29 dekabr 2009-cu il tarixli 252 saylı, vətəndaş Əliyev Hidayət Seyfəl oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 255 saylı, vətəndaş İbayev Davud Abış oğlunun 29 dekabr 2009-cu il tarixli 258 saylı, vətəndaş Kamilov Kamal Nəbi oğlunun 29 dekabr 2009-cu il tarixli 268 saylı, vətəndaş Murtuzayev İlham Müslüm oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 276 saylı, vətəndaş Həsənov Akif Nüsrət oğlunun 29 dekabr 2009-cu il tarixli 300 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 20 saylı Nərimanov ikinci seçki dairəsi üzrə Nərimanov bələdiyyəsinin üzvlüyünə namizəd Teyyublu Xəzər Qardaşəli oğlu, 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsi üzrə Çiçi Səbətlər bələdiyyəsi üzvlüyünə namizəd Məmmədov Ənvər Mustafa oğlu, 79 saylı İmişli seçki dairəsi üzrə Qaradonlu bələdiyyəsinə seçkilərlə əlaqədar Şirinov Vaqif Şirinoğlu, 79 saylı İmişli seçki dairəsi üzrə Qaradonlu bələdiyyəsinə seçkilərlə əlaqədar Mayıl Rəhimov, 61 saylı Neftçala seçki dairəsi üzrə Qədimkənd bələdiyyəsi üzvlüyünə namizəd Kərimov Əliman Əlif oğlu, 59 saylı Salyan seçki dairəsi üzrə Şorsulu bələdiyyəsinə seçkilərlə əlaqədar Zeynalova Nənəxanım Əvəz qızı, 56 saylı Xaçmaz kənd seçki dairəi üzrə Köhnə Xudat bələdiyyəsinə seçkilərlə əlaqədar Ehtiram Əmiraslanov, 115 saylı Şəki kənd ikinci seçki dairəsi üzrə Bideyis bələdiyyəsi üzvlüyünə namizəd Füzuli Əkbərov, 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə Köhnə Xudat bələdiyyəsinə seçkilərlə əlaqədar Məmmədli Cəmil Qiyas oğlu və digərləri, 110 saylı Zaqatala seçki dairəsi üzrə Çobankol bələdiyyəsi üzvlüyünə namizəd Məmmədov Qəhrəman Oruc oğlu, 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Sarxanlı bələdiyyəsi üzvlüyünə namizəd Məmmədəli Abbasov və digərləri, 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd İbrəhimov Şirzad Mirzə oğlu və digərləri, 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə vətəndaş Xəlilov Əsəd Xanlar oğlu, 108 saylı Ağstafa seçki dairəsi üzrə Pirili bələdiyyəsinə seçkilərlə əlaqədar İman Bayramov və digərləri, 79 saylı Imişli seçki dairəsi üzrə Aranlı bələdiyyəsi üzvlüyünə namizəd Kərimov Kərim Xeyrulla oğlu, 52 saylı Quba seçki dairəsi üzrə Dağlı- Qələdüz bələdiyyəsi üzvlüyünə namizəd Əliyev Hidayət Seyfəl oğlu, 66 saylı Biləsuvar seçki dairəsi üzrə Çinarlı- Aranlı bələdiyyəsi üzvlüyünə namizəd İbayev Davud Abiş oğlu, 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsi üzrə Qaracüzlü bələdiyyəsi üzvlüyünə namizəd Kamilov Kamal Nəbi oğlu, 51 saylı Qusar seçki dairəsi üzrə Qusar bələdiyyəsi üzvlüyünə namizəd Murtuzayev İlham Müslüm oğlu, 66 saylı Biləsuvar seçki dairəsi üzrə vətəndaş Həsənov Akif Nüsrət oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət

edərək, bəzi seçki məntəqələrində səsvermə günü müxtəlif səpkidə qanun pozuntularına yol verildiyini bildirərək qanunla müəyyən olunmuş qaydada araşdırmaların aparılmasını xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətlərdə göstərilən faktların dairə seçki komissiyaları tərəfindən araşdırılmalı olduğunu nəzərə alaraq, şikayətlər aidiyyəti üzrə araşdırılması və tədbir görülməsi üçün müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Teyyublu Xəzər Qardaşəli oğlunun müraciəti 19 saylı Nərimanov birinci seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Məmmədov Ənvər Mustafa oğlu, İbrəhimov Şirzad Mirzə oğlu və digərlərinin, vətəndaş Kamilov Kamal Nəbi oğlunun müraciətləri 50 saylı Qobustan – Xızı – Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Şirinov Vaqif Şirin oğlunun, Rəhimov Mayıl Əliş oğlunun, vətəndaş Kərimov Kərim Xeyrulla oğlunun müraciətləri 79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına, vətindaş Kərimov Əliman Əlif oğlunun müraciəti 61 saylı Neftçala seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Zeynalova Nənəxanım Əvəz qızının müraciəti 59 saylı Salyan seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Ehtiram Əmiraslanovun, Məmmədli Cəmil Qiyas oğlunun və digərlərinin, Kərimov Nadir Əşrəf oğlu və digərlərinin müraciətləri 56 saylı Xaçmaz kənd seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Məmmədov Qəhrəman Oruc oğlunun müraciəti 110 saylı Zaqatala seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Füzuli Əkbərovun müraciəti 115 saylı Şəki kənd ikinci seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Məmmədəli Abbasov və digərlərinin, vətəndaş Xəlilov Əsəd Xanlar oğlunun müraciəti 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş İman Bayramov və digərlərinin müraciəti 108 saylı Ağstafa seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Əliyev Hidayət Seyfəl oğlu və digərlərinin müraciəti 52 saylı Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Murtuzayev İlham Müslüm oğlunun və digərlərinin müraciəti 51 saylı Qusar seçki dairəsi dairə seçki komissiyasına, vətəndaş İbayev Davud Abış oğlu və Həsənov Akif Nüsrət oğlunun müraciətləri 66 saylı Biləsuvar seçki dairəsinin dairə seçki komissiyasına aidiyyatı üzrə baxılması üçün göndərilsin.

2. Qərarın icrası ilə əlaqədar görülmüş tədbirlər barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |